**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ PREZİDENTİ**

# SƏRƏNCAM

№ 94

Bakı şəhəri 19 fevral 2018-ci il

“Qafqazda dövlətlərarası münasibətlər:
100 il əvvəl və müasir dövr” mövzusunda
beynəlxalq elmi konfransın keçirilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” 16 may 2017-ci il tarixli 2867 nömrəli Sərəncamına və AMEA Rəyasət Heyətinin “Azərbaycan Xalq Cümhuriyyətinin100 illik yubileyinin keçirilməsinə dair AMEA-nın Tədbirlər planı haqqında” 05 iyul 2017-ci il tarixli 9/4 nömrəli Qərarına uyğun olaraq AMEA Qafqazşünaslıq İnstitutu tərəfindən 2018-ci il 21-22 may tarixində beynəlxalq elmi konfransın keçirilməsi nəzərdə tutulur. Tədbirdə iştirak etmək üçün 8 xarici, 120 yerli alim və tədqiqatçı dəvət olunmuşdur.

Tədbirin keçirilməsini təmin etmək məqsədilə:

1. AMEA Qafqazşünasliq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlıya tapşırılsın ki, tədbirin keçirilməsi ilə əlaqədar təşkilati məsələlərin həllini təmin etsin.
2. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, tədbirin keçirilməsi ilə bağlı maliyyə məsələlərinin həllini təmin etsin.
3. Sərəncamın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

Əsas: AMEA Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü
Musa Qasımlının 26 yanvar 2018-ci il tarixli 47/14 nömrəli məktubu

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT